# DƏBDƏN DÜŞMƏYƏN TAMAŞA

XX əsrin əvvəli. Milli hökümət dağılandan sonra bolşeviklər hakimiyyətə gəlir. Ölkə ağır dönəm yaşayır. Bu çətinliklər hələ 16 yaşından bəri milli azadlıq hərəkatının fəal üzvü olan gənc Cəfər Cabbarlıdan yan keçə bilməzdi. Həmin illərdə o, "Aydın" pyesini yazır və bu əsər onun milli kədərinin ifadəsinə çevrilir.

"Aydın" pyesinin yaranmasından, demək olar, bir əsr ötüb və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı böyük dramaturqun əsərini növbəti dəfə səhnəyə qoyur. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, quruluşçu rəssamı Xalq rəssamı Tahir Tahirovdur. Aydın rolunda əməkdar artist Şövqi Hüseynov, Gültəkin rolunda Simuzər Atakişiyeva çıxış etdilər. Dövlət bəyi Rövşən Abbasov, Böyükxanımı Şəbnəm Hüseynova, Surxayı Rəşid Səfərov, Balaxanı Kərəm Hadızadə, Mirzə Cavadı Vüqar Sevdiməliyev, Novruz bəyi isə Ədalət Əbdülsəmədov canlandırdılar. Tamaşa sonrası isə rejissorla müsahibəm baş tutdu.

**- Cənnət xanım, bir neçə gün əvvəl Cəfər Cabbarlının "Aydın" pyesi əsasında tamaşanız qoyuldu. C.Cabbarlının ən məşhur və mənim sevdiyim əsərinin səhnədə qoyulacağını eşidəndə, "mütləq baxmalıyam" düşündüm. Sizin özünüz tamaşadan razı qaldınızmı?**

- Bilirsiniz, bu sual mənə yox, sizə və tamaşaçıya verilməlidir. Mən ki tamaşaçı deyiləm, rejissoram. Qiyməti isə tamaşaçı verir.

**- Tamaşanın müəllifi və rejissoru olaraq istədiyiniz nəticəni ala bildinizmi?**

- Bilirsiniz, əgər tamaşaçı bəyənirsə, mən də bəyənirəm. Tamaşaçı bəyənməyəndə, mən də bəyənmirəm. Bir daha sözümdə qalıram ki, biz hər şeyi tamaşaçı üçün edirik və onların necə qarşılayacağı çox önəmlidir.

**- Həqiqətənmi siz Aydın obrazını Şövqi Hüseynovun ifasında görürsünüz?**

- Teatrımızda, adət olaraq, iki ifaçımız var – Şövqi Hüseynov və Nofəl Vəliyev. Hərəsi özünə görə layiqlidir.

**- Ümumiyyətlə, tamaşanın quruluşu zamanı aktyorları hansı parametrə görə seçirsiniz?**

- Parametr və tələblər çoxdur. Hər şeydən öndə isə istedad gəlir. Əgər aktyor həqiqətən istedadlıdırsa, o hər şeyin öhdəsindən gələ bilir və mən buna əsaslanaraq seçirəm.

**- Oxuduğum və dinlədiyim müsahibələrinizdə siz çox zaman istedaddan bəhs edir, bizim aktyorların istedadlı olduqlarını qeyd edirsiniz. Bəs artistlərimizin professional səviyyəsi barədə nə deyə bilərsiniz?**

- Nədir professionallıq? Professionallıq təcrübəylə yaranır. Amma o heç bir halda istedadı aşmalı deyil. Aktyorda canlı yaranan hər şey onun təbiəti, yəni Allahın ona bəxş etdiyidir, onu necə həyata keçirməyi isə peşəkarlığı, təcrübəsi, tamaşaçıya, oynadığı səhnəyə bələd olmasıdır.

**- Bu günkü aktyorlarda sadaladıqlarınızın hamısı varmı?**

Müxtəlif dərəcədə var. Kimdəsə çox, kimdəsə az. Təəssüf ki, Tanrı hər kəsi eyni cür mükafatlandırmır.

**- Aktyorların səhnə danışıqları aydın deyildi. Bəzən səsləri heç eşidilmirdi. Bu nəylə bağlıdır? Dediyiniz təcrübəyləmi, yoxsa akustikaylamı?**

- Bilirsiniz, bu aktyorun daxili enerjisindən asılıdır. Elə aktyorlar var, onların daxili enerjisi zəifdir. Mətnin tamaşaçıya tam olaraq çatması üçün onlar sanki yüksək enerjiylə yüklənmirlər.

**- Onların yüksək enerjiylə yüklənmələri üçün nə etmək lazımdır?**

Aktyor ustalığının müasir metodologiyasında müxtəlif üsullar mövcuddur. Hələ Stanislavskinin, Yejı Qratovskinin və digər böyük ustadların zamanından danışmıram. Mən bütün bu təcrübələrlə tanışam, amma yenə də öz fikrimdə qalıram ki, temperament Allahdan gələn bir şeydir.

**- Onda belə nəticəyə gəlmək olarmı, əgər temperament yoxdursa, səhnəyə çıxmağa dəyməz?**

- Əlbəttə!

**- Bəs belə halda aktyorların səhnə danışıqlarının aydın olmaması və enejisiz olmaları nəylə bağlıdır?**

- Müxtəlif səbəblər ola bilər – akustikanın zəifliyi, yaxud aktyorun lazımi enerjiylə köklənməməsi. Tamaşadan sonra bu barədə ona deyilərsə, növbəti çıxışında o bunu nəzərə alar və öhdəsindən gələ bilər.

**- Tamaşada bəzi dəyişikliklər edilmişdir. Məsələn, bütöv bir pərdə və bəzi səhnələr çıxarılmış, final dəyişdirilmişdir. Bu hansı səbəbdən irəli gəlir?**

- Hər əsər öz dövründə yaşayır. C.Cabbarlının yazdığı o dövr üçün idi. Hansı işçi bu gün maşınları, alətləri dağıdar? Amma C.Cabbarlının dövründə bu aktual idi. C.Cabbarlının yazdığını siz, ona olan sevginizin qarşılığı olaraq, istədiyiniz vaxt kitabxanadan götürüb evdə oxuya bilərsiniz. Onun yazdığı artıq ədəbiyyatdır. Siz isə teatra gəlmisiniz, özü də C.Cabbarlının dövründəki deyil, XXI əsrin müasir teatrına. Burada müasir baxış və analogiya mütləqdir, çünki müasir tamaşaçı özüylə əsər arasında aktual, gündəlik həyatı əks etdirən əlaqə görməlidir. Və o, səhnədən gələn mətnə qulaq asanda onu özünün yaşadığı dövrlə əlaqələndirməlidir. Axı bu tarixi tamaşa deyil. Buna görə C.Cabbarlı yox, məhz rejissor cavabdehdir.

**- Aktuallıq barədə danışmışkən, pyesin hansı tərəfləri sizə aktual gələrək onu səhnələşdirməyə təkan verdi?**

- Ondan başlayaq ki, siz bir tamaşaçı kimi hər hansı bir aktuallığı hiss edib etmədiyinizi deməlisiniz. Mən C.Cabbarlıda sənətlə cəmiyyət arasındakı əbədi konflikti tapmağa çalışdım. Nədir əsas – yüksək mənəviyyat, yoxsa hər şeyi həll edən pul? Bizim dövrümüzdə bu sual çox aktualdır. Təəssüf ki, (bəlkə zamanla bu keçər) bizim hamımızda çox şey məhz pul üzərində qurulub.

**- Tamaşanın musiqisindən və onun müəllifindən danışmaq istərdim. Sizin tamaşalarınızda musiqi nə kimi rol oynayır?**

- Musiqinin müəllifi çox istedadlı bəstəkar – Firudin Allahverdidir. Mən onunla bir çox tamaşalar qoymuşam – "Şeyx Sənan", "Xırs Quldurbasan", "Romeo və Culyetta" və "Aydın". O çox istedadlı insandır, mən onun yaradıcılıq və taleyinin pərəstişkarıyam.

**- Siz opera və balet teatrında da tamaşalar qoymusunuz. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasıyla əsasını qoyduğu milli teatr anlayışına münasibətiniz necədir?**

- Düşünürəm ki, muğam kimi spesifik sənətin mövcud olduğuna görə, təbii ki, bu milli anlayışdır. Ona görə muğam operası Bakı şəhərinin nadir suveniridir. Lakin Üzeyir Hacıbəylinin milli və avropa ənənələrini birləşdirmək kimi dahi ənənələrini də davam etdirmək gərək. Buna misal olaraq milli musiqimizin də nəzərə alınaraq avropa operasının qanunlarıyla yazıldığı "Koroğlu" operasını qeyd etmək olar. Orada operanı zənginləşdirən muğam partiyaları, milli rəqs və melodiyalar mövcuddur. Mən hesab edirəm ki, milli tərzə əsaslanaraq yaradan bəstəkarlar çox udurlar və bu sahəni inkişaf etdirmək lazımdır. Amma, təbii ki, dünya musiqi sənətinin inkişafından qopmamaq şərtilə.

**- Gələcək üçün hansı yaradıcılıq planlarınız var?**

- İşləmək, pyeslər qoymaq, yeni müəllifləri kəşf etmək, tamaşaçıyla ünsiyyətdə olmaq...

* * *

İndi isə tamaşa haqqında daha ətraflı...

Budur, teatrın gözəl binasına daxil oluram, pilləkənlərlə qalxıram və... özümü çoxlu sayda insanın əhatəsində buluram. Onların arasında həm balacalar, həm tələbələr, məktəblilər, hərbçilər və böyüklər var.

Tamaşanın əvvəli və ilk xəyal qırıqlığı. Səhnədə başında uyğunsuz parik, ortaboylu, kök bir kişi peyda olur və öz görünüşüylə C.Cabbarlının faciəvi qəhrəmanından çox komik obraz təəssüratı yaradır. Tamaşa boyu mən həmin o Aydını görmək ümidilə oturdum, amma, heyif ki, onu görmək mənə qismət olmadı. Gültəkin obrazı cazibədən məhrum idi, halbuki həmin cazibənin mövcudluğu tamaşaçıya daha maraqlı gələrdi. Pyesin maraqlı qəhrəmanı – Surxay obrazı tamaşada açılmamışdı və cəmi bir qaç kiçik səhnəylə kifayətlənmişdi. Tamaşanın müəllifi Dövlət bəyi bir qədər dəyişmiş, belə ki, onu pyesdəkindən daha yaşlı göstərmiş, bununla da Dövlət bəy və Aydının arasındakı konflikti bir qədər yumşaltmış oldu.

Hörmətli Cənnət xanım nə qədər istedaddan danışsa da, onun sözləriylə desək – təcrübə, mənim fikrimcə isə professionallığı səhnədə görə bilmədik. Mətnin aydın eşidilməməsi məndə aktyorların səhnə danışığıyla bağlı problemlərinin olması təəssüratını yaradırdı.

Rəssamın maraqlı səhnə quruluşunu ayrıca qeyd etmək lazım. Belə ki, şaquli olaraq iki hissəyə bölünmüş – "yuxarıda" zənginlər, "aşağıda" yoxsullar - səhnə rejissorun ideyasıyla üst-üstə düşürdü.

Musiqi tamaşanın çox vacib, amma təəssüf ki, çağdaş rejissorların yetərincə qiymətləndirilməyən hissəsidir. Böyük rejissorlar hər zaman musiqinin tamaşadakı rolunu qiymətləndirib və anlayıblar ki, səhnədə olan hər bir əşya və canlı kimi, musiqi də "oynamalıdır". Heyif ki, tamaşanın musiqisi heç bir şey ifadə etməyən fon olaraq dururdu. Rejissorun işi onun bu böyük əsərin məğzini anlamamasına dəlalət edir. Mən "Aydın" pyesini dəfələrlə oxumuşam. Tamaşadan sonra da ərinmədən onu vərəqlədim, bir daha fikirlərimin doğruluğunda əmin oldum. Başda janr olmaqla (belə ki, janrı sosial faciə olan pyes tamaşada melodram olaraq qurulmuşdu) çoxlu dəyişikliklərin edildiyi "Aydın"ı C.Cabbarlının pyesinin motivləri əsasında qoyulmuş müəllif tamaşası hesab etmək olar.

Çox istərdim, Azərbaycan tamaşaçısı heç bir zaman xəyal qırıqlığına uğramasın, çünki, müsahibimin dediyi kimi, bizim istedadlı aktyorlarımız, rejissorlarımız var. Azərbaycan tamaşaçısı həmişə teatra olan sevgisiylə, heç də pis olmayan duyum və bilikləriylə seçilib. Məhz buna görə o, yüksək professionallıq və keyfiyyətlə görülən işlərə layiqdir.

Teatr tənqidçisi peşəsinə iddia etmədən mən tamaşaçı və tənqidçilərimizi aktyorlarımızın qeyri-professional ifalarını qəbul etməməyə, daha tələbkar olmağa çağırıram. Yalnız bu halda biz milli teatrımızın inkişafından danışa bilərik. Hər tamaşayla biz teatra, müəllifə, tamaşaçıya və əlbəttə ki, Cəfər Cabbarlı kimi böyük şəxsiyyəti olan Azərbaycan xalqına münasibətimizi nümayiş etdiririk. Biz böyük klassikimizin yaradıcılarını dərindən öyrənməli, onlara hörmətlə yanaşmalı və gələcək nəsillərə ötürməliyik.



**Leyla Əhmədxan**